**Macarıstan Respublikasının Budapeşt şəhərində "Statistik metaməlumatlar - Giriş kursu" mövzusunda təlim kursu keçirilmişdir**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Vüqar Məmmədəlizadə və Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin aparıcı məsləhətçisi Anar Əliyev 2013-cü ilin 9-11 oktyabr tarixlərində Avropa Qonşuluq Siyasəti-Şərq regionu çərşivəsində (ENP-EAST) Avropa İttifaqının Statistika İdarəsinin (bundan sonra Avrostat) təşkilatçılığı ilə Macarıstan Respublikasının Budapeşt şəhərində "Statistik metaməlumatlar - Giriş kursu" mövzusunda təşkil edilmiş təlim kursunda iştirak etmişlər.

Təlimin təşkilində Avrostata texniki dəstək: məruzəçilərin təmin edilməsi, kursun məzmunu və digər məsələlərlə bağlı təchizat ADETEF/ICON konsorsiumu tərəfindən göstərilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd iştirakçıların nəzərinə öz işlərində praktiki istifadə üçün yararlı olacaq statistik metaməlumatlar barədə ətraflı məlumat çatdırmaqdan ibarət idi.

Kursda Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Belarus, Ermənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Monqolustan statistika xidmətlərinin mütəxəssislərindən ibarət olmaqla 21 nümayəndə iştirakçı qismində, ICON və ADETEF təşkilatlarının nümayəndələri isə müşahidəçi qismində iştirak etmişlər.

Təlim kursunda statistik metaməlumatlar sisteminin rolu, funksiyaları (planlaşdırmaq, layihələndirmək, yerinə yetirmək, qiymətləndirmək, məlumatların toplanmasını sənədləşdirmək, statistik məlumatların keyfiyyətini və metodologiyanın şəffaflığını yüksəltmək və s.), həmçinin statistika təşkilatları daxilində metaməlumat istifadəçiləri və onların xüsusiyyətləri, həmçinin digər kənar istifadəçilər və statistik metaməlumatlar sisteminin qiymətləndirilməsinin prinsipləri barədə müzakirələr aparılmışdır.

Sonda Statistik məlumatlar və metaməlumatların mübadiləsi standartının (SDMX) ümumi icmalına diqqət yetirilərək qeyd edilmişdir ki, SDMX texniki standart olaraq milli statistika xidmətinin müxtəlif istehsalçılarının məlumatlarını və metaməlumatlarını birləşdirir və onların beynəlxalq təşkilatların sistemlərinə maneəsiz daxil edilməsini təmin edir. Nəticədə əldə olunan intellektual mülkiyyət heç bir xərc ödənilmədən və məhdudiyyət qoyulmadan bütün dünya istehlakçıları üçün əlçatan olur. SDMX-in əsas prinsipi kimi onun şəffaflığı və bütün ölkələrin nümayəndələrinin bu işdə iştirakının mümkün olması qeyd olunmuşdur.

Tədbir kurs iştirakçılarına dinləmələrdə iştiraklarına görə sertifikatların verilməsi ilə başa çatmışdır.